


# «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)» Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)» Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının 2008-ci il 16 may tarixli, 605-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)» Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)» Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2008-ci il 16 may tarixli, 605-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)» Azərbaycan Respublikasının yubiley medalının Əsasnaməsi»nin 2-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti «Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli, 282 nömrəli Sərəncamına uyğun olaraq həyata keçirirlər.

3. «Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli, 282 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 6, maddə 483; 2007-ci il, № 6, maddə 661) 1-ci bəndində *«medalları»* sözündən əvvəl *«, «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)»* sözləri əlavə edilsin.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 5 iyun 2008-ci il***

***№ 768***